*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 21 noyabr 2015-ci il № 89 (2005) Qiyməti 25 qəpik


# Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya işgüzar səfəri

***Noyabrın 17-də Parisdə UNESCO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumu keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Forumda iştirak ediblər. Bu il UNESCO-nun Nizamnaməsinin qəbulundan 70 il ötür. Təşkilatın yaradılmasının 70 illiyi münasibəti ilə bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulub. UNESCO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumu da təşkilatın yaradılmasının 70 illiyinə həsr edilib.***

***Dövlətimizin başçısı Forumda çıxış edib.***




- Baş Konfransın cənab sədri.

İdarə heyətinin cənab prezidenti.

Xanım baş direktor.

Hörmətli dostlar, xanımlar və cənablar.

Əvvəlcə, noyabrın 13-də Parisdə baş vermiş dəhşətli terror hadisəsi ilə bağlı Azərbaycan xalqı adından Fransa xalqına dərin hüznlə başsağlığı vermək istəyirəm. Azərbaycan xalqı Fransa xalqının kədərini bölüşür və Fransa Respublikasının tarixində bu faciəli məqamda Fransa xalqı ilə çiyin-çiyinə dayanır. Bu dəhşətli terror hadisəsi bir daha göstərir ki, beynəlxalq ictimaiyyət bu bəla ilə mübarizə aparmaq üçün səylərini birləşdirməlidir. Dünyanın heç bir ölkəsinə bu cür hücumlara məruz qalmayacağı barədə 100 faiz zəmanət verilə bilməz. Buna görə də beynəlxalq ictimaiyyətin birgə səyləri bizə bu bəla ilə mübarizə aparmağa kömək edə bilər. Keçmişdə çoxsaylı terror hadisələrinin qurbanı olmuş bir ölkə kimi Azərbaycan terrorizmə qarşı mübarizədə öz rolunu oynayır və bu rol beynəlxalq ictimaiyyət tərəfindən qiymətləndirilir.

Azərbaycan UNESCO-nun fəal üzvüdür. 23 ildən artıqdır, - demək olar ki, müstəqilliyini bərpa etdikdən dərhal sonra, - Azərbaycan UNESCO-nun üzvü olmuşdur və bəşəri dəyərlərin təşviqində öz rolunu oynamaqdadır. Azərbaycan demək olar ki, UNESCO-nun bütün konvensiyalarını və digər hüquqi aktlarını imzalamış və ratifikasiya etmişdir. 2003-cü ildə Azərbaycan ilə UNESCO arasında mədəniyyət, elm, təhsil və kommunikasiya sahələrində əməkdaşlıq üzrə Çərçivə Sazişi imzalanmışdır. Bu da Azərbaycana UNESCO donorlarından birinə çevrilmək imkanı vermişdir. Bu, ən zəif inkişaf etmiş ölkələr qarşısında bizim öhdəliyimizdir.

Müstəqillik dövrünün əvvəlində Azərbaycan özü yoxsulluq, siyasi böhran, işğal və iqtisadi tənəzzüllə üzləşmişdi və o zaman biz beynəlxalq yardım alırdıq. İndi isə bu yaxşılığın əvəzini ödəmək və dünyanın inkişaf məramına töhfə vermək növbəsi bizimdir. Tamamilə əminəm ki, UNESCO-nun təhsil, mədəniyyət və əlbəttə, elm kimi fəaliyyət sahələri bəşəriyyətin inkişafı üçün əsas istiqamətlərdir. Bu sahələrin inkişafı dünyamızı daha da təhlükəsiz edəcək.

Dünya irsi siyahısına daxil olan İçərişəhər, Şirvanşahlar sarayı, Qız qalası, Qobustan qayaüstü rəsmləri kimi tarixi abidələrimizin UNESCO tərəfindən qorunan abidələr sırasında yer alması bizi fərəhləndirir. Azərbaycan qədim mədəniyyət, tarix, adət-ənənələr diyarıdır. Lakin, eyni zamanda, müstəqil dövlət kimi yalnız 24 il yaşayan çox gənc bir dövlətdir. Bu illər bir siyasi sistemdən digər siyasi sistemə, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid illəri olmuşdur. Bu illər ərzində ölkəmiz uğurlar əldə edə bilmişdir.

Bu gün Azərbaycan beynəlxalq arenada etibarlı tərəfdaş və təmsil olunduğu təşkilatların fəal üzvüdür. Bizim ən böyük siyasi və diplomatik uğurumuz 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasına üzv seçilməyimiz olub. Bu da beynəlxalq ictimaiyyət tərəfindən qlobal arenada Azərbaycanın rolunun, uğurlu fəaliyyətinin tanınması və bizim nailiyyətlərimizə hörmət, etimad və minnətdarlıq əlaməti idi. Beynəlxalq ictimaiyyətin etibarlı üzvü kimi Təhlükəsizlik Şurasında sədrlik etdiyimiz iki il ərzində biz diqqəti iki vacib məsələyə yönəltdik. Bunlar beynəlxalq terrorizmə qarşı mübarizə və mədəniyyətlərarası dialoqdur. Əfsuslar olsun ki, müstəqillik illərinin lap əvvəlindən Azərbaycan erməni təcavüzünün qurbanına çevrilmişdir. Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin Ermənistan tərəfindən işğalı bu günə kimi davam edir. Ermənistan tərəfindən yürüdülən etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. 250 min azərbaycanlı Ermənistandan deportasiya olunmuş və etnik təmizləməyə məruz qalmışdır, 750 min nəfər isə öz ölkəmizdə məcburi köçkünə çevrilmişdir.

Biz humanitar fəlakətlə üzləşmişdik. Biz o zaman iqtisadi cəhətdən o qədər də inkişaf etməmişdik, çox kasib ölkə idik. Bu gün televiziyada Avropanın üzləşdiyi miqrasiya böhranı ilə bağlı reportajları izləyərkən, əlbəttə ki, biz evlərini tərk etmək məcburiyyətində qalan insanların ağrısını başa düşürük. Eyni zamanda, biz bu prosesin Avropada yaşayanlar üçün çətinliklər törətdiyini də anlayırıq. Lakin, eyni zamanda, 1992-ci, 1993-cü illəri xatırlayırıq. Bu illər ərzində biz Azərbaycanda bir milyona yaxın insanı yerləşdirməli idik. O vaxtlar Azərbaycanın əhalisi təxminən səkkiz milyondan bir az artıq idi. Beləliklə, bu, dünya miqyasında adambaşına düşən qaçqın və məcburi köçkünlərin sayının ən yüksək göstəricisi idi. Qaçqın və məcburi köçkünlərin cəmiyyətimizə inteqrasiyası üçün əlimizdən gələni etdik. Bu gün onlar ölkəmizin inkişafında çox vacib rol oynayırlar.

Ermənistan nəinki beynəlxalq hüquq normalarını, həm də tarixi ədaləti pozur. BMT-nin Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Əfsuslar olsun ki, o dövrdən iyirmi ildən artıq vaxt ötmüşdür və bu qətnamələr icra olunmur. Burada biz beynəlxalq arenada qlobal təhlükəsizlik və qlobal konfiqurasiya ilə bağlı çox vacib məsələ ilə üzləşirik. Söhbət aparıcı beynəlxalq təşkilatların qərarları və qətnamələrinə məhəl qoyulmamasından və buna görə heç bir cəzanın tətbiq edilməməsindən gedir. Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymamaqda davam edir və bu hərəkətinə görə heç bir təzyiqlə qarşılaşmır.

Bu məsələ ciddi şəkildə nəzərdən keçirilməlidir. Biz Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin icra mexanizmlərini təkmilləşdirməliyik ki, ikili standartlara yol verilməsin. Çünki biz hamımız bilirik ki, bəzi hallarda Təhlükəsizlik Şurasının qətnamələri bir neçə günə, hətta bir neçə saata icra olunur. Lakin bizim timsalımızda 20 ildən artıqdır ki, danışıqlar masasında heç bir irəliləyiş yoxdur, çünki Ermənistan sülh istəmir. Onlar bizimlə sülh şəraitində yaşamaq istəmirlər. Onlar imkanları olduğu qədər işğalçılıq siyasətini davam etdirmək istəyirlər və əfsuslar olsun ki, bu günə qədər buna nail ola biliblər.

Lakin zaman bizim tərəfimizdədir, zaman ədalətin tərəfindədir, beynəlxalq hüququn tərəfindədir və mən əminəm ki, Azərbaycan bütün dünya tərəfindən tanınan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir. İşğal nəticəsində bizim tarixi, memarlıq və dini abidələrimiz məhv edilmişdir.

Siz bu vəziyyətlə video və rəsmlərlə, internet vasitəsilə tanış ola bilərsiniz. Azərbaycanın 600-dən çox tarixi və memarlıq abidəsi erməni silahlı qüvvələri tərəfindən tamamilə məhv edilmişdir. Daxilində 40 min eksponat sərgilənən 22 muzey məhv edilmişdir. O cümlədən bizim tarixi irsimizə aid olan qiymətli nümunələr muzeylərdən oğurlanaraq sonradan müxtəlif hərraclarda satılmışdır. Erməni işğalçıları tərəfindən 10 məscid yerlə-yeksan olunmuşdur. Buna baxmayaraq, siz bu gün Bakının mərkəzində Azərbaycan hökuməti tərəfindən bərpa olunmuş erməni kilsəsini görə bilərsiniz. Bu, multikulturalizmə olan yanaşmada bir fərqdir, bu, dini tolerantlığa olan yanaşmada bir fərqdir və bu, bir daha terrorizmin heç bir dinə, milli mənsubiyyətə aid olmadığını nümayiş etdirir.

İslamı terrorizmlə əlaqələndirmək tamamilə qəbuledilməzdir. Mən müsəlman ölkəsini, erməni terrorizmindən, işğalından, tarixi abidələrinin məhv edilməsindən əziyyət çəkən bir ölkəni təmsil edirəm. Əlbəttə ki, biz torpaqlarımıza qayıdacağıq, şəhərlərimizi bərpa edəcəyik, orada yeni məktəb və xəstəxanalar inşa edəcəyik, lakin tarixi abidələrimizi bərpa edə bilməcəyik. Ermənilər bizim tarixi irsimizi məhv ediblər, lakin onlar bizim iradəmizi, evlərinə geri qayıtmaq istəyən qaçqın və məcburi köçkünlərin, Bakıda və Azərbaycanın digər şəhərlərində dünyaya gələn, öz tarixi torpaqlarını heç vaxt görməyən, lakin doğma torpaqlarına qayıtmaq üçün qəlbində böyük iradə ilə yaşayan insanların nəvə və nəticələrinin iradəsini məhv edə bilməzlər. Onlar geri qayıdacaqlar! Biz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün hər şeyi edəcəyik. Bir daha qeyd etmək istəyirəm ki, beynəlxalq hüquq normaları Azərbaycanın mövqeyini tamamilə dəstəkləyir. Eyni zamanda, Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. "Qarabağ" sözünün mənşəyi Azərbaycana məxsusdur. Bu, Qara Bağ deməkdir, bunun erməni dilində heç bir mənası yoxdur.

Ermənilər bu ərazidə XIX əsrin ortalarında məskunlaşıblar. Çar Rusiyasının XX əsrin əvvəllərinə təsadüf edən xəritələrinə baxsanız görəcəksiniz ki, Ermənistanın bugünkü ərazisinin, bütün şəhərlərinin və kəndlərinin, bütün toponimlərinin mütləq əksəriyyətinin adları öz mənşəyini Azərbaycan dilindən götürüb. Rusiya imperiyasının süqutundan sonra 1918-ci ildə ilk Azərbaycan Demokratik Respublikası yaradılmışdır. Bu respublikanın qəbul etdiyi ilk qərarlardan biri Yerevanı Azərbaycandan Ermənistana vermək oldu. Ermənistanın bugünkü paytaxtı XX əsrin əvvəlində əhalisinin 80 faizini azərbaycanlılar təşkil edən bizim tarixi İrəvan şəhərimizdir. Bu gün bu şəhər tamamilə etnik təmizlənməyə məruz qalıb. Beləliklə, tarix və beynəlxalq hüquq bizim mövqeyimizi dəstəkləyir və sizin də təsəvvür edə bildiyiniz kimi, bu məsələ Azərbaycan üçün, Azərbaycanın hər bir vətəndaşı üçün bir nömrəli məsələdir. Bu faciəvi hadisələrə və bu günədək davam edən işğala baxmayaraq, Azərbaycan transformasiyada böyük uğura imza ata bilmişdir.

Biz güclü demokratik təsisatlar yaratmışıq, müasir siyasi və çoxpartiyalı sistem qurmuşuq. Azərbaycan bütün azadlıqlara hörmət edildiyi bir ölkədir. Söhbət siyasi fəaliyyət azadlığından, mətbuat azadlığından, toplaşma azadlığından gedir. Dünya Bankının qiymətləndirməsinə əsasən, 2008-ci ildə azərbaycanlıların yalnız 17 faizi internet istifadəçisi idi, 2015-ci ildə bu göstərici artıq 75 faiz təşkil edir. Bizim planımız bütün ölkə ərazisini genişzolaqlı pulsuz internet rabitəsi ilə əhatə etməkdir. Bu, mətbuat azadlığının, informasiya azadlığının bizim üçün prioritet məsələlər sırasına daxil edildiyini aydın nümayiş etdirir.

Cənab sədrin qeyd etdiyi kimi, Azərbaycan iqtisadi inkişaf sahəsində böyük irəliləyiş əldə edib. Buna üzərimizdə olan qaçqın və məcburi köçkün yükünə rəğmən nail olunmuşdur. Ötən onillikdə iqtisadi inkişaf dünyada ən sürətlilər sırasında idi - 300 faizdən çox. İnsan kapitalına sərmayə yatırmaqla biz 10 il müddətində yoxsulluğun səviyyəsini əhəmiyyətli dərəcədə - demək olar ki, 50 faizdən 5 faizə qədər azalda bildik. İşsizlik səviyyəsi hətta 5 faizdən azdır. Bizim çox az xarici borcumuz var, ümumi daxili məhsulun yalnız 12 faizini təşkil edir. Ümumdünya Davos İqtisadi Forumunun hesabatına əsasən, Azərbaycan iqtisadiyyatı qlobal rəqabətliliyinə görə 40-cı yerdədir. Beləliklə, iqtisadi islahatlar bizə maliyyə ehtiyatlarımızı toplamağa, onları sosial inkişafa və infrastrukturun inkişafına yönəltməyə imkan verdi.

Biz gələcəyə, təhsilə investisiya yatırırıq. Azərbaycanda məktəblərin ümumi sayı 5 minə qədərdir. Bunların 3 mindən çoxu ötən on il ərzində inşa edilmişdir. Biz demək olar ki, yüz faizlik savadlılığa nail olmuşuq. Bu da öz növbəsində bizim gələcəyimizin çox güclü intellekt mənbəyidir. Ötən on il ərzində tikilmiş 500-dən artıq xəstəxana və digər səhiyyə müəssisəsi insanlarımıza müasir tibb xidmətlərindən faydalanmaq imkanı verir. Beləliklə, insan kapitalının inkişaf etdirilməsi bizim üçün həmişə ciddi qəbul edilən prioritet məsələ olmuş və olmaqda davam edir.

Cənab sədrin qeyd etdiyi kimi, Azərbaycan sivilizasiyalararası və mədəniyyətlərarası dialoqda çox fəal rol oynayır. Biz mədəniyyətlərarası dialoq mövzusunda keçirilən üç forumda UNESCO-nun rəsmi tərəfdaşımız olmasından və Azərbaycanın Şərq ilə Qərbin qovuşuğunda yerləşən, əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən, lakin, eyni zamanda, dünyəvi cəmiyyəti və hökuməti olan, Avropa Şurasının və İslam Əməkdaşlıq Təşkilatının üzvü olan bir ölkə kimi nadir rol oynamasından qürur hissi duyuruq. Biz bu çox əlverişli fürsətdən istifadə edərək insanları, sivilizasiyaları bir-birinə daha da yaxınlaşdırmağa çalışırıq. Biz 2008-ci ildə İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin mədəniyyət nazirlərinin Avropa Şurasına üzv olan ölkələrin mədəniyyət nazirlərinin görüşündə iştirakını təmin edən "Bakı prosesi" adlı forum təşəbbüsünü irəli sürdük. Bu, tərəfimizdən atılmış birinci addım idi. Sonra 2009-cu ildə biz əksini etdik. İslam ölkələrinin mədəniyyət nazirlərinin görüşünə Avropa Şurasına üzv olan ölkələrin mədəniyyət nazirlərini dəvət etdik.

Bu gün mədəniyyətlərarası dialoqa heç zaman olmadığı qədər böyük ehtiyac var. "Bakı prosesi" təşəbbüsünü irəli sürəndə dünyadakı vəziyyət tamamilə fərqli idi. Bu gün etimadsızlığın səviyyəsinin artdığını görürük. Müvafiq tədbirlər görməsək, dini zəmində qarşıdurmaların hamımız üçün daha da böyük problemlərə gətirib çıxaracağını görürük. Lakin biz sülh şəraitində yaşaya bilərik və düşünürəm ki, Azərbaycan kimi ölkələrin nümunələri bunu əyani şəkildə göstərir. Bizim ölkəmizdə bütün dinlərin nümayəndələri sülh və dostluq şəraitində yaşayırlar. Hökumətimiz, dövlətimiz nəinki məscidlərin tikintisinə, həmçinin, kilsələrin, pravoslav və katolik kilsələrinin, sinaqoqların yenidən qurulmasına və inşasına sərmayə yatırır. Qafqaz regionunda ən qədim kilsələrdən birinin Azərbaycanda, qədim Şəki şəhərinin yaxınlığında yerləşməsindən fərəhlənirik. Eyni zamanda, 743-cü ildə tikilmiş ən qədim məscidlərdən birinin Azərbaycanın qədim Şamaxı şəhərində yerləşməsindən qürur hissi keçiririk. Azərbaycanda müxtəlif konfessiyaların nümayəndələri dini bayramları eyni masa arxasında qeyd edirlər. Buna görə də multikulturalizm bizim üçün bu gün müzakirə olunan, sadəcə, işləyib-işləməməsindən, həyata keçirilib-keçirilməməsindən asılı olmayaraq bir ideya deyil. Multikulturalizm bizim adət-ənənəmizdir.

Bu gün multikulturalizm təkcə ənənə deyil, bu, dövlət siyasətidir və bizim həyat tərzimizdir. Bu, mümkündür, çünki bizim bu sahədə topladığımız çox vacib təcrübəmiz var. Bunun bir nümunəsi bu il Azərbaycanın ilk Avropa Oyunlarına ev sahibliyi etməsidir. Çox qəribədir ki, Avropadan başqa bütün qitələrin öz oyunları var idi. Olimpiya Oyunlarının ana vətəni qədim Yunanıstan olmuşdur, sonra Baron de Kuberten Oyunları burada - Fransada bərpa etmişdir. Lakin Avropanın heç zaman özünəməxsus oyunları olmamışdı. Beləliklə, Avropa Olimpiya Komitəsinin müsəlman ölkəsində Avropa Oyunlarının bərpası ilə əlaqədar müdrik qərarı multikulturalizm və tolerantlıq ideyalarının hamımız üçün əhəmiyyət kəsb etdiyini nümayiş etdirir.

Oyunlar uğurla keçirilmişdir və Avropanın 50 Olimpiya Komitəsini təmsil edən 6 mindən çox atlet Oyunlarda iştirak etmişdir. Biz 2017-ci ildə İslam Həmrəylik Oyunlarına ev sahibliyi edəcəyik. Ola bilsin ki, uzun illər ərzində Azərbaycan və Bakı bu iki yarışın bir məkanda keçiriləcəyi yeganə yer olaraq qalacaqdır. Biz qarşılıqlı anlaşmaya töhfə verməyi davam etdirəcəyik, çünki multikulturalizm qarşılıqlı anlaşmaya, qarşılıqlı hörmətə əsaslanır.

Siz digər dinlərə öz dininizə rəğbət bəslədiyiniz kimi hörmət etməlisiniz. Siz qonşunuzdan milliyyətini, kilsədə, sinaqoqda və ya məsciddə ibadət etməsini soruşmadan onunla yanaşı yaşamalısınız. Yalnız bu halda biz potensial riskləri azalda bilərik. Biz artan gərginlikləri aradan qaldıra bilərik. Əfsuslar olsun ki, dünyada vəziyyət bizim istədiyimiz istiqamətə doğru dəyişmir. Biz səylərimizi birləşdirməliyik. Biz Azərbaycanda qitələri, sivilizasiyaları bir araya gətirmək üçün üzərimizə düşən vəzifəni yerinə yetiririk. Konfransın sədrinin qeyd etdiyi kimi, gələn il biz xüsusilə multikulturalizm, dini və etnik tolerantlıq məsələlərinin müzakirəsini nəzərdə tutan BMT-nin Sivilizasiyaların Alyansının qlobal forumuna ev sahibliyi edəcəyik. Bu məsələdə UNESCO-nun nadir rolunu vurğulamaq istəyirəm. Biz UNESCO-nun fəaliyyətini və Baş direktoru xanım İrina Bokovanın güclü rəhbərliyini dəstəkləyirik. Azərbaycan UNESCO-ya şərəfli fəaliyyətində dəstək olmaq üçün əlindən gələni edəcəkdir. Bir daha sizi salamlamaq, sizə hörmətimi ifadə etmək və UNESCO-nun 70-ci ildönümü münasibətilə sizi təbrik etmək istəyirəm. Çox sağ olun.

**AZƏRTAC-ın materialları əsasında**

## General-polkovnik Zakir HƏSƏNOV:

# “Görülən kompleks tədbirlər Silahlı Qüvvələrə göstərilən qayğının bariz nümunəsidir”

## Hərbi Hava Qüvvələrinin növbəti aviabazasında yeni yaşayış binalarının açılışı olub







***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Hərbi Hava Qüvvələrinin hazırlıq səviyyəsinin yüksəldilməsi, hərbi qulluqçuların mənzil və sosial-məişət şəraitlərinin yaxşılaşdırılması ilə əlaqədar müvafiq göstərişinə əsasən, növbəti aviabazada yeni inşa edilən iki yaşayış binasının noyabrın 19-da açılış mərasimi keçirilib.***

Ümumilikdə üçotaqlı 100 mənzildən ibarət beşmərtəbəli binalar kommunikasiya xətləri ilə təchiz olunaraq mərkəzləşdirilmiş istilik sisteminə qoşulub. Ərazidə yarımstansiya, su anbarı tikilib. Binaların ətrafı asfaltlanıb və kanalizasiya sistemi quraşdırılıb. Yaşayış kompleksinin ərazisində yaşıllaşdırma və abadlıq işləri görülüb, hərbi qulluqçuların ailə üzvlərinin səmərəli istirahəti üçün lazımi şərait yaradılıb.

Xidməti mənzillərin açarlarının təqdimetmə mərasimində uçuş və texniki heyət, eləcə də onların ailə üzvləri ilə görüşən Müdafiə naziri general-polkovnik Zakir Həsənov nazirliyin rəhbərliyi adından tədbir iştirakçılarını təbrik edərək deyib: "Möhtərəm cənab Prezidentin tapşırığını yerinə yetirərək aviabazada yeni binaların tikilərək sizin istifadənizə verilməsi ailələrinizin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərin bir hissəsi və ümumilikdə Silahlı Qüvvələrdə hərbi qulluqçuların və onların ailə üzvlərinin mənzil şəraitlərinin yaxşılaşdırılması istiqamətində icra olunan kompleks tədbirlərin davamıdır.

Ali Baş Komandanın diqqət və qayğısının, orduya verilən qiymətin təzahürüdür ki, qısa bir müddətdə inşa edilən yüz xidməti mənzilin açarları istifadənizə verilir.

Son iki ay ərzində artıq beşinci binadır ki, inşa edilərək istismara verilir. O cümlədən elə sizin də hərbi hissədə daha bir beşmərtəbəli binanın tikintisinin sona çatdırılması nəzərdə tutulur. Yeni ilədək 500-dən artıq ailəli hərbi qulluqçular isti, geniş, təmirli və tam təchiz olunmuş mənzillərdə yerləşdiriləcəklər. Bundan əlavə, hazırkı vaxta kimi 1000-dək subay hərbi qulluqçu xidməti mənzillərlə təmin olunub.

Yaxın aylarda daha beş bina inşa ediləcək və ailəli hərbi qulluqçuların istifadəsinə veriləcəkdir. Yaxın vaxtlarda Gəncə şəhərində 490 hərbi qulluqçu daimi mənzillə təmin olunacaqdır. Bu işlər planlı surətdə davam etdirilir.

Digər istiqamətlərdə də fəaliyyətlərimiz genişləndirilir. Müasir silah-sursat, döyüş texnikası, aviasiya vasitələri və avadanlıq alınaraq silahlanmaya daxil edilir, hərbi şəhərciklərin ərazilərində hazırkı tələblərə cavab verən yeni infrastruktur yaradılır. Görülən kompleks tədbirlər, hərbi sahəyə ayrılan maliyyə vəsaiti dövlətimiz, xalqımız və ölkə başçısının Silahlı Qüvvələrə göstərdiyi qayğının bariz nümunəsidir.

Qısa dövr ərzində ordumuz düşmənə zərbələr vuraraq əsas istiqamətlərdə onu sarsıdıb. Haqq işimizi davam etdirəcəyik. Ərazilərimizin işğaldan azad edilməsində digər qoşun növləri ilə bərabər aparıcı qüvvə heç şübhəsiz ki, həm də Hərbi Hava Qüvvələridir. Bu vəzifənin yerinə yetirilməsi bizim üzərimizə düşür. Əminəm ki, Azərbaycan əsgəri silahı gücünə xalqımızın və Prezidentin etimadını doğruldacaqdır.

Bir daha Sizi ürəkdən təbrik edir, yeni mənzillərinizdə xoşbəxtlik və firavanlıq arzulayıram".

Mərasim iştirakçıları yaradılan şəraitdən məmnunluqlarını bildirərək göstərilən qayğıya görə Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə minnətdarlıq ediblər.

Yeni mənzillərin açarları hərbi qulluqçulara təqdim edildikdən sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti yaradılan şəraitlə tanış olub, ailələrin qayğıları ilə maraqlanıb və çay süfrəsi ətrafında söhbət ediblər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Yeni əsgər yataqxanası istifadəyə verildi

***Noyabrın 20-də Müdafiə Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsinin tabeliyində olan hərbi hissədə müasir tələblərə cavab verən əsgər yataqxanasının açılışı olub. Müdafiə naziri general-polkovnik Zakir Həsənov dəfələrlə qeyd edib ki, ölkə başçısı cənab İlham Əliyevin göstərişinə əsasən, Silahlı Qüvvələrdə hərbi qulluqçuların məişət şəraitinin yaxşılaşdırılması istiqamətində irimiqyaslı işlər görülür və bu istiqamətdə işlər davam etdiriləcəkdir.***





Müdafiə nazirinin müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi vəzifəsini icra edən polkovnik Fuad Məmmədov yeni tikilib istifadəyə verilən əsgər yataqxanasının açılış mərasimində iştirak edib. O, hərbi hissənin əsgər və zabitləri qarşısında çıxış edərək deyib:

- Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi yeni və güclü Azərbaycanın inkişaf strategiyası möhtərəm Prezidentimiz İlham Əliyevin əzmkarlığı, qətiyyəti, yüksək siyasi və liderlik keyfiyyətləri ilə davam etdirilir. Silahlı Qüvvələrimizdə əldə etdiyimiz bugünkü uğurlarımızı təmin edən səbəb də buradan qaynaqlanır.

Natiq qeyd etdi ki, Azərbaycan Ordusunun döyüş qabiliyyəti əhəmiyyətli dərəcədə artıb və hazırda dünyanın ən nizami ordularından biridir. Ölkəmizin ərazi bütövlüyünü təmin edə biləcək bir ordu formalaşıb. Polkovnik daha sonra dedi ki, Silahlı Qüvvələrimizdə maddi-texniki təminat problemlərinin aradan qaldırılması, ayrı-ayrı qoşun növlərində hərbi qulluqçuların xidmət və həyat şəraitinin yaxşılaşdırılması istiqamətində konkret nəticələr müşayiət olunur. Yaradılan şərait şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının artırılmasına, hərbi tapşırıqların icrası zamanı yüksək nəticələrin əldə olunmasına zəmin yaradan əsas amillərdəndir.

Tədbirdə çıxış edən mayor Hüseyn Həsənov və əsgər Rəhman Bayramov yaradılan yüksək şəraitə görə silahdaşları adından dövlətimizin rəhbərliyinə, şəxsən Prezident, Ali Baş Komandan İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər.

Sonra polkovnik Fuad Məmmədov yeni istifadəyə verilən əsgər yataqxanasının açılış lentini kəsdi. Tədbirdə iştirak edən Müdafiə Nazirliyinin bir qrup yüksək rütbəli zabiti yeni əsgər yataqxanasında oldu. Onlar sinif, silah, dəftərxana otaqlarına baş çəkdilər. Yeni və müasir əsgər yataqxanasında məişət, qurutma otaqları, şəxsi heyətin əşya anbarı, əl-üz yuma yerləri əsgərlərin ixtiyarına verildi.



Polkovnik İslam Gəncəliyev bildirdi ki, şəxsi heyətin asudə vaxtı da səmərəli təşkil olunub. Belə ki, əsgər yataqxanasında quraşdırılan, bir mərkəzdən idarə olunan genişekranlı televizorlar və digər ideoloji vasitələrdən istifadə edən əsgərlər ölkədə və dünyada baş verən hadisələr haqda daim yeni məlumatlar əldə edəcəklər.

Sonda Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının ifasında şən mahnılar ifa olundu.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Təmas xəttində monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, noyabrın 19-da Füzuli rayonunun Horadiz kəndi yaxınlığındakı qoşunların təmas xəttində monitorinq keçirilib.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle, Piter Svedberq və yüksək səviyyəli planlama qrupunun nümayəndəsi polkovnik-leytenant Den Harvey keçiriblər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Yevgeni Şarov, Xristo Xristov və yüksək səviyyəli planlama qrupunun nümayəndəsi polkovnik Andrey Baraşkin keçiriblər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***19 noyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 91 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Yarımca, Göyarx, Çaylı, Ağdam rayonunun Cəvahirli, Kəngərli, Sarıcalı, Şıxlar, Novruzlu, Baş Qərvənd, Qaraqaşlı, Şuraabad, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 102 dəfə atəş zərbəsi endirib.

***20 noyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 98 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Berkaber, Noyemberyan rayonunun Voskevan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Qızılhacılı, Quşçu Ayrım kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Ağdam rayonunun Şıxlar, Cəvahirli, Kəngərli, Sarıcalı, Novruzlu, Şuraabad, Qaraqaşlı, Mərzili, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 107 dəfə atəş zərbəsi endirib.

# Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində ölkəmizə 818,88 milyard dollar ziyan dəyib

Azərbaycan Respublikası ərazilərinin Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupunun indiyə qədər apardığı hesablamalara əsasən, bu işğal nəticəsində əhaliyə 147,8 milyard, dövlətə isə 126,46 milyard dollar ziyan dəyib. Təbii sərvətlərə, maddi irsə və digər sahələrə dəyən ziyan da əlavə edilərsə, Ermənistanın Azərbaycan torpaqlarını işğalı nəticəsində ölkəmizə ümumilikdə 818,88 milyard dollar ziyan vurulub. İşçi qrup dəymiş ziyanın hesablanması istiqamətində işi davam etdirir

AZƏRTAC xəbər verir ki, bu faktlar Azərbaycan Respublikası ərazilərinin Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupunun hesabat yığıncağında səsləndirilib.

"Silahlı erməni təcavüzü: İtki və tələfatlarımız" mövzusunda keçirilən tədbirdə İşçi Qrupunun rəhbəri, professor Xanhüseyn Kazımlı yığıncaqda məruzə ilə çıxış edib. Məruzədə son iki əsrdə ermənilər və onların havadarları tərəfindən azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətindən bəhs edilib. Bildirilib ki, XX əsrdə azərbaycanlılar dörd dəfə soyqırıma, habelə təqib və deportasiyalara məruz qalıb, öz tarixi torpaqlarından didərgin salınıblar.

Erməni işğalı nəticəsində dəyən birbaşa maddi zərərlərin və ölkəmizin özünümüdafiə xərclərinin hesablanması istiqamətində artıq bir sıra işlərin görüldüyünü bildirən X.Kazımlı qeyd edib ki, İşçi Qrupu tərəfindən ölkəmizin əqli mülkiyyətinə, tarix və mədəniyyət abidələrinə və mülki əhaliyə vurulan birbaşa zərərlərin miqdarı müəyyənləşdirilir.

İşçi Qrupunun hesabat yığıncağında çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin sektor müdiri Elman Paşayev bildirib ki, Ermənistanın işğalı nəticəsində Azərbaycana dəyən zərərin qiymətləndirilməsi Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlarda ölkəmizin mövqeyini xeyli möhkəmləndirir. Bu cür qiymətləndirmə və ortaya tutarlı dəlillərin qoyulması, eyni zamanda, Azərbaycanın beynəlxalq qurumlarda da arqumentlərini gücləndirir, konkret faktlar və sənədlərlə çıxış etməyə imkan verir. Bu faktlar həmçinin dövlət məmurlarının və QHT nümayəndələrinin ölkəmizin haqlı mövqeyini daha qətiyyətlə müdafiə etməsinə də şərait yaradır.

Prezident Administrasiyası rəsmisi medianın da bu işdə fəallıq göstərməsinin, hesabatda qeyd olunan faktları geniş işıqlandırmasının vacibliyini vurğulayıb.



# “Sənə inanırıq, ölkə rəhbəri, sənə güvənirik, Vətən əsgəri!”



## Müdafiə Nazirliyi və Füzuli rayon İcra Hakimiyyətinin birgə kütləvi hərbi vətənpərvərlik tədbiri

***Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Füzuli rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Horadiz şəhər stadionunda "Sənə inanırıq, ölkə rəhbəri, sənə güvənirik, Vətən əsgəri!" devizi altında teatrlaşdırılmış kütləvi hərbi vətənpərvərlik bayramı keçirilib.***



Xalqımızın ümummilli lideri Heydər Əliyevin xeyir-duası və Ali Baş Komandanlığı ilə başlanan Horadiz əməliyyatı 1994-cü il yanvarın 6-da uğurla başa çatmış və bu əməliyyat nəticəsində qısa vaxt ərzində Füzuli rayonunun 22 yaşayış məntəqəsi ulu öndərimizin qətiyyəti, böyük sərkərdəlik məharəti, döyüş bölgəsinə gedərək orduda və yerli əhalidə ruh yüksəkliyi, böyük inam yaratması ilə azad edilmiş, düşmənin Beyləqana irimiqyaslı hücumunun qarşısı alınmış, Cəbrayılın Cocuq Mərcanlı kəndi işğaldan azad edilmiş, ümumilikdə 21 min hektar ərazi yağı tapdağından xilas olunmuşdur. Düşmən həm döyüş texnikası, həm silah-sursat, həm də canlı qüvvə sarıdan xeyli itki verərək geri oturdulmuşdur.



Tamamilə dağıdılmış və viran qalmış Horadizin xarabalıqları üzərində yaşıllıqlara qərq olmuş gözəl bir yaşayış məntəqəsi yaradılmış və möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müvafiq sərəncamına əsasən, Horadizə şəhər statusu verilmişdir. Ali Baş Komandan son illərdə bu bölgəyə bir neçə dəfə səfər etmiş və şəhərin daha da inkişafı məqsədilə sərəncamlar vermişdir.

Horadizlilər daim atəş altında olmalarına baxmayaraq, bu şəhərdə yaşamaqdan, Azərbaycan əsgəri isə cəbhəboyu bölgənin keşiyində durmaqdan böyük qürur duyurlar.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyev bölgəyə səfərlərindən birində demişdir: "Biz Horadiz şəhərinin timsalında dirçələn Azərbaycanı, qüdrətli Azərbaycan Ordusunu, ulu öndər Heydər Əliyevin siyasətini görürük".

Məhz polkovnik Abdulla Qurbaninin ssenarisi və rejissorluğu ilə uğurla keçən kütləvi hərbi vətənpərvərlik bayramında da minlərlə tamaşaçı bir-birindən maraqlı səhnələr, vizual görüntülər, min nəfərlik əsgər xorunun, birləşmiş bədii özfəaliyyət kollektivlərinin, Füzuli Dövlət Dram Teatrı aktyorlarının, Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının, mədəniyyət və incəsənət ustalarının, musiqi kollektivlərinin, hərbi orkestrin və Gəncə Qarnizonu Zabitlər Evinin xüsusi təşviqat qrupunun iştirakı ilə təqdim edilən ədəbi-bədii, musiqili-xoreoqrafik kompozisiyalarda Azərbaycanın son illərdəki dinamik sürətli inkişafını, dirçəlişini, Azərbaycan Ordusunun qüdrətini, ulu öndər Heydər Əliyev siyasətinin uğurlu davamını izləyə biliblər.

Tədbir başlamazdan öncə Müdafiə Nazirliyinin rəsmiləri, Füzuli rayon İcra Hakimiyyətinin rəhbərliyi, veteranlar və respublikanın paytaxtından gəlmiş qonaqlar ümummilli lider Heydər Əliyevin Horadiz şəhərinin mərkəzindəki abidəsini ziyarət edib və qarşısına gül-çiçək dəstələri düzüblər.

Kütləvi tədbir əməkdar mədəniyyət işçisi polkovnik-leytenant Rafiq Hacıyevin drijorluğu ilə hərbi orkestrin ifasında general Yusif Axundzadənin "Azərbaycan fanforası"nın səslənməsi ilə başlanıb. Bütün tədbir iştirakçıları Azərbaycan Respublikasının Dövlət himnini ifa edib. Füzuli rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev bayram iştirakçılarını salamlayaraq səmimi arzularını bildirib. Respublikanın bütün bölgələrində olduğu kimi, Füzuli rayonunun da son illərdə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında inkişafından, iqtisadi, mədəni dirçəlişindən, əhalinin sosial rifahının yüksəlməsindən, ölkə rəhbərliyinin ərazisi işğal olunmuş digər rayonların əhalisi ilə yanaşı, bu rayonun da sakinlərinə daimi diqqət və qayğı göstərməsindən minnətdarlıq hissi ilə danışıb. O qeyd edib ki, Horadiz şəhəri və digər Arazboyu yaşayış məntəqələri işğaldan azad olunduqdan sonra dağıdılmış kəndlər, sosial obyektlər bərpa olunub, füzulililər doğma yurdlarına qayıdıblar. Hazırda rayonun işğaldan azad olunmuş hissəsində 70 mindən çox insan yaşayır. Ölkə rəhbərinin qayğısı ilə Füzulidə yeni qəsəbələr salınıb, müasir sosial-infrastruktur layihələrinin reallaşdırılması rayona yeni həyat bəxş edib. Azərbaycan Prezidentinin rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında 6 sərəncamı bu rayona göstərilən diqqət və qayğının bariz nümunəsidir. İcra başçısı vurğulayıb ki, bu bölgədə ordu ilə xalqın sağlam və sarsılmaz birliyi yaranıb. Füzulililər ölkə rəhbərinə inanır, Vətən əsgərinə güvənirlər. Onlar əmindirlər ki, tezliklə Ali Baş Komandanımızın rəhbərliyi, ordu ilə xalqın birliyi və xalqına, millətinə arxalanan Azərbaycan əsgərinin zəfər yürüşü ilə işğal altında olan digər torpaqlarımız da azad olunacaq, Azərbaycanın ərazi bütövlüyü təmin ediləcək, müqəddəs bayrağımız Şuşada, Laçında, Xankəndidə..., eləcə də Füzulidə dalğalanacaqdır.

Görkəmli ictimai-siyasi xadim Bahar Muradova belə bir kütləvi vətənpərvərlik tədbirinin Horadiz şəhərində keçirilməsinin heç də təsadüfi olmadığını qeyd edərək deyib ki, həqiqətən də, möhtərəm Prezidentimizin dediyi kimi, biz Horadiz şəhərinin timsalında dirçələn Azərbaycanı, qüdrətli Azərbaycan Ordusunu, ulu öndər Heydər Əliyevin siyasətini görürük. Heç kim işğal altında olan digər ərazilərimizin də Horadiz kimi azad ediləcəyinə, bərpa olunacağına, yeni quruculuq işlərinin başlanacağına, məcburi köçkünlərimizin öz dədə-baba yurdlarına tezliklə qayıdacaqlarına şübhə etməməlidir. Çünki müdrik və qətiyyətli Prezidentimiz elə bir məqsədyönlü siyasət aparır ki, artıq dünya Azərbaycan reallıqları ilə razılaşmağa məcburdur. İstər Avropa ölkələrində, istər Yaxın Şərqdə iqtisadi, siyasi, hərbi və mənəvi böhran yaşandığı, Ermənistanın iflasa uğradığı, çökdüyü bir vaxtda Azərbaycandakı sabitlik, davamlı iqtisadi inkişaf, qüdrətli və qarşısına qoyulmuş hər hansı bir döyüş tapşırığını icra etməyə qadir və hazır olan Silahlı Qüvvələrin yaranması xalqın öz rəhbərinə inamını və milli təhlükəsizliyimizin təminatçısı olan Azərbaycan Ordusuna öz güvəncini daha da artırıb. Bu gün hamı bir amal, bir məqsəd, bir bayraq altında birləşib. Bütün ölkə vətəndaşları kimi füzulililər də Azərbaycan uğrunda, Qarabağ uğrunda Ali Baş Komandanın hər bir əmrinə hər an müntəzirdirlər.



Sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbriki tədbir iştirakçılarına çatdırılıb. Müdafiə nazirinin bir neçə gün öncə hərbçilər üçün tikilmiş yeni yaşayış binasının açılış mərasimində dediyi sözlər xatırlanaraq əminliklə bildirilib ki, biz düşməni məhv edərək onu mütləq torpaqlarımızdan qovacaq və yaxın müddətdə ərazilərimizi işğaldan azad edəcəyik.




Teatrlaşdırılmış kütləvi vətənpərvərlik tədbirinin gedişi zamanı tamaşaçıların gözləri qarşısında ötən əsrin 90-cı illəri canlandırılıb. Ulu öndər Heydər Əliyevin Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı milli televiziya və radio ilə xalqa 2 noyabr 1993-cü il tarixli müraciəti ilə xalqın milli mənlik şüurunun oyandığı və ordu quruculuğunda yeni bir mərhələnin başlanıldığı bədii vasitələrlə təqdim olunub, irihəcmli monitorda ulu öndərin cəbhə bölgəsinə səfərləri, yerli əhali və döyüşçülərlə görüşləri işıqlandırılıb.

Füzuli Dövlət Dram Teatrı aktyorlarının ifasında "Hər şey ordu üçün, hər şey qələbə üçün!" ədəbi-bədii kompozisiyası tamaşaçıların vətənpərvərlik hissini, ölkə rəhbərinə inamını və Vətən əsgərinə güvəncini daha da artırıb.

Döyüş texnikalarının və şəxsi heyətin iştirakı ilə Azərbaycan Silahlı Qüvvələrinin tarixində ən uğurlu əməliyyat olan Horadiz əməliyyatının stadionda canlandırılması, bu əməliyyat zamanı şəxsi rəşadət və şücaət nümunələri göstərmiş müharibə veteranlarının, qazilərin alqışlarla qarşılanması, eləcə də şəhid Milli Qəhrəmanların aktyorların ifasında təqdimatı tamaşaçıların böyük marağına səbəb olub. Azərbaycanın Milli Qəhrəmanları Pəhlivan Fərzəliyev, Rasim İbrahimov, Seymur Məmmədov, Elxan Zülfüqarov, Faiq Rəfiyev və başqaları yenidən həyata qayıtsaydılar, yenə də öz canlarını Vətən uğrunda qurban verər, Qarabağ uğrunda candan keçərdilər, deyiblər.

Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi uğrunda döyüşlərdə gözlərinin nurunu itirmiş, Paralimpiya və Birinci Avropa Oyunlarının çempionu İlham Zəkiyev paytaxtın Şəhidlər xiyabanından alovlandırdığı məşəllə stadiona daxil olub. Ona Füzuli rayon İcra Hakimiyyəti başçısının sərəncamı ilə Füzulinin müdafiəsində və gənclərin hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərinə görə rayonun fəxri sakini adı verilib. İlk Avropa Oyunlarında qazandığı qələbəyə görə İlham Zəkiyevin şərəfinə ucaldılmış bayraqla meydana daxil olan (bir neçə ay öncə İlham Zəkiyev xidmət etdiyi hərbi hissənin qonağı olmuş və həmin bayrağı tezliklə Füzulidə ucaltmaq arzusu ilə davamçılarına təqdim etmişdir) xüsusi təyinatlıların nümunəvi çıxışları alqışlarla qarşılanıb.



Aparıcılar (xalq artisti Pərvanə Məmmədova, əməkdar incəsənət xadimi Abdulla Qurbani) Azərbaycan Ordusunun güc və qüdrətindən söhbət açıb, bölgənin müdafiəsində dayanan hərbi hissələrin uğur və nailiyyətlərindən, düşmən kəşfiyyat-təxribat qruplarının qarşısının vaxtında və layiqincə alınmasındakı xidmətlərindən, ordu ilə xalqın birliyindən geniş bəhs ediblər. Hərbçilər nizami addımlarla, qələbə əzmi ilə tamaşaçılar qarşısından keçiblər.

Füzuli rayonundan həqiqi hərbi xidmətə çağırılmış, müxtəlif bölgələrdə xidmət edən döyüş və mənəvi-psixoloji hazırlıqda fərqlənən əsgərlərin, xüsusi təyinatlı təhsil müəssisələri kursantlarının stadiona daxil olması və onların çıxışları həm tamaşaçılara, həm də onların valideynlərinə xoş anlar yaşadıb.

Məhəmməd Füzulinin (əməkdar mədəniyyət işçisi Vaqif Vəliyev) stadiona daxil olması və onun "Artıq qisas vaxtı çatıb, qoşun çıxsın son döyüşə!" çağırışı tamaşaçıların ayaqüstə alqışı ilə cavablanıb.



Geniş ekranda surəti görünən və alqışlarla qarşılanan Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin "Bizim əsas vəzifəmiz ərazi bütövlüyümüzü bərpa etməkdən ibarətdir. Mən əminəm ki, güclənən Azərbaycan buna da nail olacaq və bizim milli bayrağımız Şuşada, Xankəndidə... dalğalanacaqdır. Hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü öz işi ilə yaxınlaşdırmalıdır. Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!" sözlərindən sonra "Sənə inanırıq, ölkə rəhbəri, sənə güvənirik, Vətən əsgəri!" kompozisiyası təqdim olunub. Bütün iştirakçılar ayağa qalxaraq bir daha Azərbaycan uğrunda Ali Baş Komandanın hər bir əmrinə hazır olduqlarını bəyan ediblər. Əsgər xoru "And içirik" mahnısını ifa edəndə tamaşaçılar da onlara qoşulub.



Tədbirin sonunda rayon rəhbərliyi və qonaqlar belə bir möhtəşəm tədbirin düşmənlə təmas xəttində, Horadiz şəhərində reallaşmasına göstərdiyi təşəbbüs və köməyə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirib və bu kimi kütləvi hərbi vətənpərvərlik tədbirlərinin böyük əhəmiyyət kəsb etdiyini vurğulayıblar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

Ordu və cəmiyyət

# “Azərbaycanda mübariz gənclik formalaşıb”

***Vətənpərvərlik deyəndə hər şeydən əvvəl sinəsini Vətənə sipər edib torpaqlarımızı qoruyan oğulları düşünürəm. Ötən əsrin sonlarında gənc müstəqil dövlətimizin bir qism ərazisi işğala məruz qalanda, yüzlərlə, minlərlə mətin gəncimiz silaha sarılıb Vətənimizin müdafiəsinə qalxmışdı.***

***Zadiq Mustafayev də belələrindən biridir. Bu gün də Zadiq müəllim özünü Vətənimizin müsəlləh əsgəri hesab edir. Cəmşid Naxçıvanski adına Hərbi Liseydə tədbirlərin birində onunla tanış oldum. Vətən yükünü daşımaqdan qürur duyan keçmiş döyüşçü yeniyetmələrin gələcəyin layiqli zabitləri kimi yetişmələri üçün öz təcrübəsini əsirgəmir. Azərbaycan Ordusunun dünəni və bu günü ilə bağlı maraqlı fikirlərini öyrənmək istəyi məni onunla görüşüb söhbət etməyə ruhlandırdı. Beləliklə, həmsöhbətim Qarabağ müharibəsi əlili, ehtiyatda olan mayor Zadiq Mustafayevdir.***



***- Müharibə dövrü ilə bağlı fikirlərinizi bölüşməyi xahiş edirəm. Orduda xidmətləri olan bir zabit kimi Silahlı Qüvvələrimizin müasir inkişafı haqqında nə deyə bilərsiniz?***

- Müharibənin öz sərt qanunları var. Kim onları bilir və əməl edirsə, uğur qazanır. O dövrdə Silahlı Qüvvələrimizin yaranması çox çətin proses idi. Mən Bakı Dövlət Universitetini bitirib zabit kimi ehtiyata buraxılmışdım. 1992-cil ilin sentyabrında Müdafiə Nazirliyinin ehtiyat taborunda hazırlıq keçib ön cəbhəyə göndərildik. Ağdərə istiqamətində gedən döyüşlərdə müdafiə mövqeyi tutduq.

1993-ci il martın 28-29-da çox ağır döyüşlərimiz oldu. Üstündən 22 il keçməsinə baxmayaraq o dəhşətli döyüş indi də gözlərimin qarşısında canlanır. Vətən, torpaq uğrunda canından keçməyin sözdə yox, əməldə şahidi oldum bu döyüşdə. Qax rayonundan Mövlud İsgəndərov, Qaradağ rayonundan altı bacının bir qardaşı Ərəstun Kərimov çox böyük qəhrəmanlıq göstərərək şəhid oldular. O dövrdə ailənin tək oğul övladlarını müharibəyə aparmırdılar. Amma Ərəstun könüllü olaraq Vətənin müdafiəsinə gəlmişdi. Bakılı əsgər Nurəddinin (soyadını unutmuşam) müdafiəni yarıb üstümüzə gələn düşmən tankını özü ilə bərabər məhv etməsini daim qürurla anıb ruhu qarşısında baş əyirəm. İgidin Şəhidlər xiyabanındakı məzarını tez-tez ziyarət etməyi özümə borc bilirəm. Hazırda ehtiyatda olan zabitlər Vaqif Malaxov, Əmirağa Məmmədov, Zakir Hüseynov, Amil Mirzəyev, Elsevər Qurbanov və başqaları, həmçinin, əsgərlərimiz igidliklə vuruşdular.

O döyüşdə 38 nəfər şəhid oldu, 46 nəfər yaralandı. Amma bir qarış torpaq belə düşmənə verilmədi. Bundan hiddətlənən ermənilər döyüş meydanını atəşə tutaraq şəhid və yaralıları çıxarmağa imkan vermirdilər. Lakin bütün şəhid və yaralılar çıxarıldı. Mən də aralarında olmaqla, 18 nəfər ağır yaralı Tərtər hospitalından helikopter vasitəsi ilə Bakıya göndərildi. Müalicə olunub yenidən silahdaşlarımla ön cəbhəyə qayıtdım...

***- Yəqin ki, çox şey dəyişib...***

- Hazırda Azərbaycanın Silahlı Qüvvələri bölgədə lider olmaqla yanaşı, həm də dünyanın ən aparıcı orduları ilə eyni səviyyədədir. Güclü nizami ordu formalaşıb. Dövlətimiz ordunun möhkəmlənməsi üçün bütün tədbirləri görür. Ordumuzun maddi-texniki təchizatı, kadr potensialı yüksək səviyyədədir. Prezident, Ali Baş Komandan İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ordumuza göstərdikləri diqqət və qayğı, davamlı olaraq yeni hərbi hissələrin yaradılması, vacib məişət işlərinə qadınların və peşəkarların cəlb olunması, qida rasionuna milli xörəklərin daxil edilməsi göz önündədir. Bir sözlə, ordumuzun döyüş qabiliyyəti, vətənpərvərlik hissi və maddi-texniki təchizatı ən müasir tələblərə cavab verir. Xalqımız sülh tərəfdarıdır. Buna görə də səbr nümayiş etdirir və münaqişənin sülh yolu ilə nizamlanması məqsədilə beynəlxalq səviyyədə aparılan danışıqlara dəstək verir. Münaqişə ədalətli sülhlə başa çatmalı, respublikamızın ərazi bütövlüyü təmin olunmalıdır. Lakin sülh danışıqları sonsuzluğa qədər davam edə bilməz. Biz hər an Ali Baş Komandanın verəcəyi bütün əmrlərə hazırıq.

***- Zadiq müəllim, hazırda dövlətimizin müharibə iştirakçılarına diqqət və qayğısı barədə danışmağınızı istərdim.***

- Azərbaycanda Qarabağ müharibəsi əlillərinə, döyüşçülərə yüksək dövlət qayğısının əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli liderimiz tərəfindən 1994-cü il avqustun 26-da imzalanan "Azərbaycan Respublikasını erməni təcavüzündən müdafiə edərkən əlil olmuş şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında" fərmanı müharibə əlillərinin sosial ehtiyaclarının ödənməsi istiqamətində atılan ilk addım olub. Ulu öndərimizin siyasi kursunun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əlil insanlara olan diqqət və qayğısı göz qabağındadır. Müharibə əlillərinin sosial vəziyyətlərinin yaxşılaşdırılması üçün konkret işlər görülür. Ölkə başçımızın sərəncamına müvafiq olaraq müxtəlif kateqoriyadan olan əlillərin müavinəti artırılır. Onlara dövlət tərəfindən fərdi evlər, mənzillər verilir. Şəxsən mənə 2010-cu ildə Prezident İlham Əliyevin adından tam təmirli, mebellə təchiz olunmuş mənzil verilib. Həmin gün 243 nəfər müharibə əlili də evlə təmin olundu. Eyni zamanda əlillərə minik maşınlarının verilməsi prosesi sürətlə gedir. Digər ehtiyaclarımız da dövlət tərəfindən vaxtında ödənilir. "Azərbaycan Respublikası Əlillərin Bərpa Mərkəzi"ndə də hərtərəfli tibbi xidmətlərdən istifadə edirik. Mən də bir müharibə əlili olaraq dövlətimizin qayğısını daim hiss edirəm.

***- Bu gün də bir pedaqoq, müəllim olaraq dəyərli töhfələrinizi gənc nəsildən əsirgəmirsiz. Gələcəyin zabitləri olacaq yeniyetmələrdə ən çox hansı keyfiyyətləri görmək istərdiniz?***

- Ölkənin gələcəyi onun gəncliyindən asılıdır. Bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Özünü hərb peşəsinə həsr etmək istəyən gənclərimiz ilbəil artır. Bu, bizim ordunun bu günü və gələcəyi üçün çox əhəmiyyətlidir. Hər bir gənc ailəsi, Vətəni və cəmiyyət üçün önəmli şəxsiyyət olmağa çalışmalıdır. Bu mənada gənclərin fiziki və mənəvi sağlamlığı vacib şərtdir. Gənclərimiz ilk növbədə üzərində yaşadıqları torpaq, Vətən qarşısında öz borclarını anlamalı, dərk etməlidirlər. Mənim 3 oğlum var. Onların hər biri Vətən qarşısında əsgəri müqəddəs borclarını verib. Ortancıl oğlum - baş leytenant Elkin Mustafayev isə ön cəbhədə xidmət edir. Onun Vətənə, millətə, torpağa olan sevgisi məni qürurlandırır. İstərdim ki, Azərbaycan gəncləri yüksək təhsilə, mədəniyyətə sahib olan bacarıqlı, peşəkar və ölkəmizin adını ucalara qaldıran, Vətənimiz uğrunda son nəfəsəcən mübarizə aparmağı bacaran gənclər olsunlar. Və sizi tam məsuliyyətlə əmin edirəm ki, mən bu gəncliyi bu gün Azərbaycanda görürəm.

**PS:** *Vətən sevgisi əzəli və əbədi bir qəlb odudur. Heç vaxt öz təravətini, gücünü itirmir və elə buna görədir ki, insan bu sevgiyə köklənəndə dünyanın bütün gücü onun qollarına toplanır, göyün bütün işığı, nuru onun qəlbinə, fikrinə dolur. Mən bu sevgini Zadiq müəllimin gözlərində, Vətən eşqi ilə döyünən ürəyində gördüm. Ehtiyatda olan mayor ürəkdən inanır ki, tezliklə torpaqlarımız yağı əsarətindən xilas ediləcək, düşmən üzərində qələbə qazanılacaq. Əlbəttə, qüdrətli Azərbaycan Ordusu bu vacib vəzifənin öhdəsindən mütləq gələcək.*

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Laçın (17 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## Azərbaycan idmançıları K-1 üzrə dünya çempionu olublar



İtaliyada K-1 üzrə dünya çempionatına yekun vurulub. Turnirdə 80 kiloqram çəki dərəcəsində mübarizə aparan Azərbaycan təmsilçisi Ziya Bayramov bütün rəqiblərinə qalib gələrək dünya çempionu olub. Yarımfinalda Polşa, həlledici görüşdə isə İsveç idmançısına nokautla qalib gələn Z.Bayramov fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Daha bir idmançımız 49 kiloqram çəki dərəcəsində çıxış edən Ramazan Abdullayev də komanda yoldaşının uğurunu təkrarlayıb. Yarımfinalda Almaniya, finalda isə İtaliya təmsilçisindən güclü olan Ramazan Abdullayev dünya çempionatının növbəti qızıl medalını qazanıb.

## Cüdoçularımız Avropa çempionatında üç medal qazanıblar




Cüdo üzrə Azərbaycan yığması 23 yaşadək idmançılar arasında Bratislavada keçirilən Avropa çempionatında uğura imza atıb. Azərbaycan millisi çempionatın sonuncu günündə iki medal qazanıb. Telman Vəliyev (66 kq) və Hidayət Heydərov (73 kq) ali kürsünün üçüncü pilləsində yer alıblar. Turnirdə mübarizə aparan cüdoçularımız arasında ən yaxşı nəticə Davud Məmmədova məxsusdur. O, 60 kiloqram çəki dərəcəsində gümüş medal qazanıb. Qeyd edək ki, Azərbaycan yığması ümumi komanda hesabı üzrə 13-cü yeri tutub.

## Bədii gimnastika üzrə Bakı çempionatı və birinciliyinin qalibləri müəyyənləşib




Bakı şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) və Azərbaycan Gimnastika Federasiyası tərəfindən bədii gimnastika üzrə paytaxt çempionatı və birinciliyi keçirilib. Bakı Olimpiya İdman Kompleksində təşkil olunan birincilikdə 2005-ci il təvəllüdlü idmançıların yarışında Elnarə Cabbarova, 2006-cı il təvəllüdlü gimnastların mübarizəsində isə Cahan Əsədova çoxnövçülükdə birinci olublar. 2007-ci il təvəllüdlü idmançıların mübarizəsində isə Leyla Dəmirova fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Yarışda yeniyetmələr arasında Dərya Farşbafşəhriyari, gənclərin mübarizəsində isə İlahə Məmmədova qızıl medal qazanıblar.Balacaların və yeniyetmələrin qrup yarışlarında isə "Ocaq" klubu birinci olub.

## Respublika Velotrekində məktəblilər arasında yarış təşkil olunub



Yeniyetmələrin asudə vaxtının səmərəli təşkili, perspektivli idmançıların seçilməsi və velosiped idmanında kütləviliyin təmin olunması məqsədilə Respublika Velotrekində Bakının Yasamal rayonunun orta məktəbləri arasında rayon çempionatı keçirilib. Yarışda hər birinin tərkibində 3 oğlan və 1 qız olan 18 komanda iştirak edib. Reqlamentə görə, kollektivlər 800 metrlik marşrut boyunca estafet sistemi üzrə yarışıblar. Nəticələrə gəlincə, birinci yerə Bakı Avropa Liseyinin komandası sahib olub. Yarışda 13 və 158 nömrəli məktəblərin komandaları isə müvafiq olaraq 2-3-cü yerləri tutublar. Qarşıdakı günlərdə paytaxtın digər rayonlarının məktəbləri arasında da analoji yarışlar təşkil ediləcək. İlk 3 yeri tutan komandalar arasında isə final mərhələsi gələn ilin yanvarında təşkil ediləcək, onlar Bakı çempionatında iştirak hüququ əldə edəcəklər.

## Azərbaycan şahmatçıları Danimarka komandasına qalib gəliblər



Reykyavikdə şahmat üzrə komandalar arasında Avropa çempionatında beşinci turun görüşləri çərçivəsində kişilərdən ibarət Azərbaycan komandası Rusiya millisi ilə qarşılaşıb. Birinci lövhədə millinin lideri Şəhriyar Məmmədyarovun Pyotr Svidler ilə sülh bağlamasının ardından digər qrossmeysterlər - Teymur Rəcəbov, Arkadi Naydiç və Eltac Səfərli də görüşü heç-heçə başa vurublar. Qarşılaşma 2:2 hesabı ilə yekunlaşıb. Qadınlardan ibarət Azərbaycan millisi isə Danimarka seçməsi ilə qarşılaşıb. Görüş 4:0 hesabı ilə Azərbaycan komandasının xeyrinə başa çatıb. Öz görüşlərini qələbə ilə Zeynəb Məmmədyarova, Gülnar Məmmədova, Xəyalə Abdulla və Ülviyyə Fətəliyeva başa vurublar. Altıncı turda kişilərdən ibarət komandamız Niderland, qadınlardan ibarət millimiz isə Polşa yığması ilə qarşılaşacaq.

**AZƏRTAC-ın materialları əsasında**

Redaksiyanın poçtundan

# Dövlətin Silahlı Qüvvələrimizə qayğısı həmişə hiss edilir

***Mətbuatdan xəbər tutdum ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişinə əsasən, bundan sonra hərbi hissələrimizdə “Açıq qapı” günü keçiriləcək. Bunu xalqla ordunun vəhdətini göstərən ən təqdirəlayiq hadisə hesab edirəm.***



Erməni işğalçıları torpaqlarımıza göz dikəndə və Vətənimizin ayrılmaz hissəsi olan Dağlıq Qarabağı Azərbaycandan qoparmağa çalışanda biz beyləqanlılar da silah götürüb ərazilərimizi düşməndən qorumağa qalxdıq. O vaxt mən də könüllülər taborunun komandiri idim. Sonradan tabor Silahlı Qüvvələrimizin tərkibinə daxil oldu. Vətənimizin cəsur oğulları düşmənə qarşı cəsarətlə vuruşur, qəhrəmanlıqlar göstərir, canlarını Azərbaycan naminə fəda edirdilər.

Bununla belə qeyd etməliyəm ki, həmin illərdə çoxlu problemlərimiz olurdu. Ordumuzda pərakəndəlik vardı, vahid komandanlıq yox idi. Hamı zərbəni bir hədəfə vurmurdu, ona görə gücümüz parçalanırdı. Ordumuz təzə-təzə formalaşırdı, təminatı lazım olan səviyyədə deyildi. Bütün bunlar əsgərlərimizin döyüş ruhuna öz təsirini göstərirdi.

Xoşdur ki, o dövrlər arxada qalıb. Ordumuz dünya standartlarına uyğun silah və texnika ilə təchiz edilir, döyüş hazırlığını get-gedə artırır. Hamımız üçün sevindiricidir ki, Silahlı Qüvvələrimiz qüvvətlənir, müasir döyüş texnikası, silah-sursatla təminatı, yüksək döyüş ruhu qarşıya qoyulan döyüş tapşırıqlarını yerinə yetirməyə imkan verir.

Bu gün dövlət rəhbərliyinin Silahlı Qüvvələrimizə qayğısı hər addımda hiss edilir. Yeni hərbi hissələr inşa edilir, döyüşçülərimizin məişət şəraiti yaxşılaşdırılır. Ən başlıcası isə əsgərlərimiz döyüş bacarıqlarını məşğələlərdə, təlimlərdə daha da artırırlar. İndi ordumuz 20 il bundan qabaqkı ordu deyil, xeyli uğurlarımız var və biz bununla fəxr edirik. Qarşıda böyük vəzifə dayanır. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş əzəli Azərbaycan torpaqlarını, Dağlıq Qarabağı azad etmək hamımızın, ilk növbədə ordumuzun qarşısında duran ən önəmli məsələdir. Bu gün xalqla ordu arasında qırılmaz bağlılıq var. Bu da təbiidir. Orduda xidmət edənlər bu xalqın övladlarıdır. Bu birlik bizi uğurlara aparır. Silahlı Qüvvələrimizin bütün zabit, gizir və əsgərlərinə bu müqəddəs yolda uğurlar arzulayıram.

**Akif HƏSƏNOV,**
**Qarabağ müharibəsi veteranı**

***Silahlı Qüvvələrimizdə fiziki hazırlıq və idmana xüsusi diqqət yetirilir. Hərbi hissələrdə müasir idman şəhərcikləri hərbi qulluqçularımızın ixtiyarındadır və günün nizam qaydalarına uyğun olaraq burada idmana cavabdeh zabitlər öz işlərinin öhdəsindən layiqincə gəlməyə çalışırlar. Bütün bunlar əsgərlərimizin sağlam və qüvvətli orqanizmə sahib olmaları üçün əsas vasitədir.***



iştirak edən hərbi qulluqçulardan Ələkbər Muradovu xüsusi qeyd etmək istərdim. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi əsgərimiz artıq 5 il 5 aydır ki, ordu sıralarındadır. Döyüş hazırlığı ilə yanaşı, idman yarışlarında iştirak edir və uğurlar qazanır. Futbol üzrə yarışlarda iştirak etdiyi komanda 6 dəfə birinci yerə layiq görülərək ordu çempionu olub. Həmçinin, fərdi yarışlarda dəfələrlə yüksək pillələrdə qərarlaşıb. Muradov idman yarışları ilə yanaşı, təlimlərdə də uğurla iştirak edir, xidmətdə fərqlənir.

Komandanın digər üzvlərini də tanımaq, söhbət etmək imkanı qazandıq. Həmişəki kimi onlar da idman şəhərciyində idilər. Tural Qədiməliyev, Əli Bayramov, Ələs Zeynalov, Asif Nəsibov, Söhbət Əhədov və Müşfiq Vəliyev dedilər ki, idman onların həyatlarının ayrılmaz bir parçasıdır. Mütəmadi olaraq idmanla məşğul olurlar ki, düşmən qarşısında məğlub olmasınlar.

Onlarda bu həvəsi, inamı və qüvvəti gördükdə əmin oluram ki, idman yarışlarında bayrağımızı zirvələrə qaldıran hərbi qulluqçularımız, tezliklə üçrəngli bayrağımızı işğal altında olan torpaqlarımızda dalğalandıracaqlar...

# Hərbçilərimiz idmanda da uğurlar qazanır

"N" hərbi hissəsində idman şəhərciyində olmaq, idmançılarımızla söhbət etmək imkanı əldə etdik. Şəxsi heyətin fiziki hazırlığına cavabdeh şəxslərdən olan kapitan Nadir Şabanovla söhbət edirik və öyrənirik ki, 1998-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirib. Hərbi hissədə şəxsi heyətin idmana olan marağını artırmaq və Silahlı Qüvvələrdə keçirilən yarışlarda uğurlar qazanması üçün əlindən gələni edir.

- Ümummilli liderimiz Heydər Əliyevin bir çıxışını daim xatırlayıram, - deyə zabit bildirir. - Ulu öndər çıxışında demişdi ki, "İdman elə bir sahədir ki, idmançılarımız müxtəlif ölkələrdə yarışlarda iştirak edir, qələbələr qazanırlar və hər dəfə müstəqil Azərbaycanın adını ucaldırlar. Müstəqil Azərbaycanın himni səsləndirilir, müstəqil Azərbaycanın bayrağı qaldırılır və müstəqil Azərbaycan dünyanın müxtəlif ölkələrində tanınır. Demək olar ki, idman kimi Azərbaycanın müstəqilliyinin rəmzlərini nümayiş etdirən ikinci bir vasitə yoxdur".

Bildiyiniz kimi, artıq Silahlı Qüvvələrimizin idmançıları beynəlxalq turnirlərdə iştirak edir və uğurlar qazanırlar. Bunun bariz nümunəsi yaxın vaxtlarda Koreya Respublikasında təşkil olunan hərbçilərin VI dünya idman oyunlarında uğurla iştirak etmiş Azərbaycan milli komandasıdır. Bu yarışda komandamız 12 medal qazanıb və komanda hesabında 15-ci yeri tutub. Yarışlarda düşmən ölkənin idmançıları da iştirak edib. Və bizim idmançılar onları tam üstünlüklə məğlub ediblər.

Həqiqətən, uzaqgörən rəhbər, ümummilli lider Heydər Əliyevin dediyi fikir öz təsdiqini tapır. İdmançılarımız Azərbaycanımızın adını beynəlxalq turnirlərdə ucaldırlar.

N.Şabanov hərbi hissənin adını idman yarışlarında yüksəklərdə tutan idmançılardan da danışmağı unutmadı.

- 2015-ci ildə idmançılarımız bir sıra yarışda iştirak ediblər, - dedi kapitan. - Komandamız yüngül atletika və futbol yarışlarında 1-ci yerə, beşnövçülükdə isə 2-ci yerə layiq görülüb. Komandada

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Xarici hərbi xronika

## “Leopard-2”-lər döyüş sırasına daxil ediləcək

Almaniyanın quru qoşunlarının tərkibinə "Leopard-2" tankları daxil ediləcək. Bu, altı zirehli tank taborunun komplektləşdirilməsinə imkan verəcək.

Almaniyanın Silahlı Qüvvələri Komandanlığı "Leopard-2" maşınlarının silahlanmaya daxil edilməsinə 23,6 milyon dollar vəsait ayırmaq niyyətindədir. Tankların modernləşdirilməsinə 2017-ci ildən başlanacaq. Hazırda Almaniyanın silahlanmasında müxtəlif növ "Leopard" döyüş maşınları vardır.

## Yaponiya yeni uçuş kompleksi quraşdıracaq

Yaponiyanın Aerokosmik Tədqiqatlar Agentliyinin məlumatına görə, 2019-cu ildə Taneqasima kosmodromunda yeni ucuş kompleksinin tikintisinə başlanılacaq. 2020-ci ildə isə onun istismara verilməsi nəzərdə tutulub. Burada H-3 raket-daşıyıcısının uçuşu həyata keçiriləcək. Hazırda burada iki uçuş kompleksi fəaliyyət göstərir. Onlardan biri H-2A raketinin, o birisi isə H-2B modifikasiyasının uçuşunu həyata keçirir. Məhz ikincinin raket-daşıyıcısı üçün yenidən qurulması planlaşdırılıb. Layihənin qiyməti 79,8 milyon dollar dəyərində hesablanıb.

## Nüvə arsenalına əlavə vəsait

Pentaqon nüvə arsenalının saxlanılmasına əlavə 10 milyard dollar vəsait ayrılmasını istəyib. Hərbçilərin qənaətinə görə, silahlanmanın ciddi yenilənməsi vacibdir. Əks halda milli təhlükəsizlikdə boşluq yarana bilər. Bunun üçün hərbi idarəyə qarşıdakı dövr üçün vəsait tələb olunur.

Söhbət nüvə üçlüyündən - strateji bombardmançılardan, sualtı qayıqlardan və strateji nüvə raketlərindən gedir. Pentaqonda onu da bildiriblər ki, bütün Amerikanın nüvə arsenalının modernləşdirilməsi 2030-cu ilədək həyata keçiriləcək. Hazırda ABŞ Konqresində 2016-cı il üçün hərbi büdcənin müzakirəsi davam edir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**“Azərbaycan Ordusu”**

Gizir Səlimov Elmir Əli oğluna 2012-ci ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 926
Nüsxə 4710